## QARDAŞLIQ ÇƏLƏNGİ

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qardaş Özbəkistana səfəri və prezident Şövkət Mirziyayevlə görüşündən ilhamlanaraq qələmə alınmışdır*

**Ey yurdumun yurddaşları,
Türk elində bayram olsun.
Xoşbəxt günlər davam etsin,
Pis günlərdə aram olsun.
Şənlik etsin Türk elinin,
Cavan, igid oğulları,
Daim Altay dağlarının,
Yox olsun dumanı, qarı.
Dədəm Qorqud qopuz çalsın,
Qoç Koroğlu səda salsın,
Qoy bizim qardaşlığımız,
Bu dünya durduqca qalsın.
Qoy ucalsın qopuz səsi,
Ərənləri haraylasın.
Bu elin başbilənləri,
Türklük ocağı qalasın.
Yaxsın bütün düşmənləri,
Yandırmasın ürəkləri.
Birliyimiz nəsillərə
İndimizdən miras qalsın.
Bayram havası yaşadaq,
Bildirək bütün cahana.
Türklük bağıran ellərə,
Düşmən qalsın yana-yana.
Gözün aydın olsun, ey Türk,
İstədiklərin olacaq.
Bütün türklər birləşəcək,
Türk dünyası qurulacaq.
Bu günlərdən doğan gündüz,
Neçə qaranlıq yaracaq.
Düşmənlərin gündüzləri,
Dönüb qaranlıq olacaq.
Qardaşlıq möhkəmlənəcək,
Türk dünyası güclənəcək,
Bu güc ilə yeni-yeni,
Zəfərləri gətirəcək.
Ərtoğrulun nəvələri,
Dünyaları titrədəcək!
Görəcəksən sən o günü,
Onda məzlumlar güləcək.
Qurumayacaq Xəzərim,
Quruyacaqdır göz yaşım.
Xaqanların nəvələri,
Gətirəcək dirilişi,
Budur türkün planları,
Budur türkün əsas işi.
Haqqa sığınandı türküm,
Haqqa tapınandı türküm,
Haqq yolunda nərə çəkib,
Ulu türküm edəcəkdir,
Bu dünyada çevrilişi.
Ey bacım, sil göz yaşını,
Gör igid türk qardaşını,
Sən məğrur göstər özünü,
Heç bir vaxt əymə başını.
Ataq başdan dərdi-səri,
Birlik olmaq zamanıdır!
Damarımızda hey axan,
Türk qanıdır, türk qanıdır.
Necə ki qırmızı ordu,
Türküstanı işğal etdi.
Ləğv etdi Türküstan adın,
Mərkəzi Asiya etdi.
Türk sözün lüğətdən sildi,
Qırğız, qazax, özbək, türkmən,
Torpaqları bölüşdürdü,
Ayrı saldı o, türkləri.
Azadlıq istəyənlərə,
"Basmaçı" adını dedi.
Türkü yurdundan edərək,
Onlara boş vədlər verdi.
O, onlara nələr etdi?
"Türküstan proletarı,
Tez birləşməlidir"-- dedi.
Onda yox, indi deyirik,
Tarixən bir olmuş türkü,
Bir olmağa səsləyirik.
O talançı xainləri,
Cinayətkar caniləri,
O vəhşi qaniçənləri,
Taxtdan endirib əzirik.
Budur bizim diləyimiz,
Ulu türkün oyanması.
Bundan sonra quracağıq,
Türk dünyası - Haqq dünyası!
Birləşərək türk qəhrəman,
Olacaq dünya nəhəngi.
Qəlbimdən gələn bu dastan,
Olsun qardaşlıq çələngi!**

## QAN İLƏ DASTANA DÖNƏN GECƏDƏ

***Qardaş Türkiyə Respublikasında baş vermiş 15 iyul Demokratiya Zəfərinin 6 illiyinə və bu Zəfərdə payı olan şəhid və qazilərə həsr olunur***

İllər boyu bizləri aldatdılar,
Haram yedilər, Vətəni satdılar,
Şəhid qanlarına bais oldular,
Bu qədərmi çaqqal olar meşədə?,
Qan ilə dastana dönən gecədə.

Bir gün xalqa xain tələ qurdular,
Qoca-cavanın üzünə durdular,
Vətənin dərisini soyurdular,
Xainlər utanmırdılar necə də!
Qan ilə dastana dönən gecədə.

Xalq oyandı, "Birlik vaxtıdır!" dedi,
Güllə yağışlarına sinə gərdi,
Şəhadətə doğru uzun yol getdi,
Şəhadət şərbətin içdi necə də!
Qan ilə dastana dönən gecədə.

Fikrim quş tək uçur həmin günlərə,
Macal vermədi xalq o xainlərə,
İgidlər şəhid oldu gülə-gülə,
Heç vaxt yaşamayaq o anı bir də,
Qan ilə dastana dönən gecədə.

"O şənbə gecəsi, o qətl günü",
Əhali kəsdi xainin önünü,
Dəyişdirdi zalımların yönünü,
Vətəni apardı xalq Zəfərinə,
Qan ilə dastana dönən gecədə.

Bu Vətənə hücum edən çox oldu,
Daim millət xain gözə ox oldu,
Qaranlıqla birgə onlar yox oldu,
Ömürlük dərs keçildi düşmənlərə,
Qan ilə dastana dönən gecədə.
Ərdoğanla hey yüksəlir, ucalır,
Ulusundan, keçmişindən güc alır,
Haqq sözüylə bu cahana səs salır,
Yerini göstərir o, zalimlərə,
Aydınlıqlara çevrilən gecədə.

Şükür bu günə, millətim dirçəlir,
Yarasını sarır, artıq güclənir,
Dirilişdən sonra şahlanış gəlir,
Daha zərbə almayacaq Türkiyə,
Qan ilə dastana dönən gecədə.

## SALAM OLSUN!

Ey ana yurd, ana torpaq,
Ellərinə salam olsun.
Bir sözünə min can deyən,
Dillərinə salam olsun!

Qədir bilən insanına,
Ədəbinə, ərkanına,
Həm elminə, irfanına,
Milyon kərə salam olsun!

Qucağına qaçacağıq,
Günəş nuru saçacağıq,
Gün gələcək, uçacağıq,
Göylərinə salam olsun!

Sən ey əməkçi qəhrəman,
Həmişəki kimi canlan,
Bu qədər quran-yaradan,
Əllərinə salam olsun!

Ana Vətən, hər anına,
Daşqınına, tufanına,
Coşub-daşan İlhamına,
Sellərinə salam olsun!

Yeni yollar var - gedilir,
Xoş günlər var - qeyd edilir,
Xeyir işlər var - edilir,
Təkanlara salam olsun!

Ala gözlü Nigarlara,
Xoş sözlü Bəxtiyarlara,
Səsim çatan diyarlara,
Məkanlara salam olsun!

Kasıba, həm də evsizə,
Məzlum ilə kimsəsizə,
Kara, kora və əlsizə,
Yetənlərə salam olsun!

Salam verən Sevindikdən,
Salamı çatdırsın ərən,
Türk dünyasıyla birləşən,
Vətənlərə salam olsun!

22.06.2022



Sevindik
NƏSİBOĞLU
9-cu sinif şagirdi, şair-publisist,
AJB üzvü